# Təbriz də, Bakı da Azərbaycandır!

**Güney Azərbaycanımızdan gələn səsləri hələ uşaq ikən Azərbaycan radiosundan, Araz dalğasından çox eşitmişik. "Bulaq" verilişlərinin axar-baxarlı, çağlayan şaqraq səsindən, zümzüməli şırıltısından boy verən aşıq musiqisinin qəlbləri ehtizaza gətirən nidaları hələ də könlümüzün sarı simində çalınmaqdadır. Çox dinləmişik o sehrli səsləri, o munis kəlmələri, ibrətamiz məsəlləri, dastanları, nağılları, aşıq havacatlarını... "Araz, Araz, Xan Araz...", "Mən səndən ayrılmazdım, zülm ilə ayırdılar..." Saymaqla, sanamaqla bitməz ki...**



Dünyada ikiyə bölünən ölkələr, xalqlar var ki, ayrı düşsələr də öz başlarının ağaları olublar. Zaman-zaman hansısa siyasi dalğanın təsiri ilə aralarına sərhəd məftilləri çəkilsə də, bu onların azadlıqlarını əlindən almayıb, xalq, millət olaraq varlıqlarına qəsd olunmayıb. Koreyalılar, vyetnamlılar, almanlar və sair millətlər bu acıları yaşayıblar, ancaq bizim kimi yox! Bizim çəkdiyimiz ağrılar, acılar, əzablı yaşantılar, məruz qaldığımız repressiyalar, despotların zülmü nə bəyana gələndi, nə ölçüyə sığan!

Fars rejiminin 35 milyonluq bir xalqın göz-görəsi yoxa çıxarılmasına, məhvinə hesablanmış vəhşi siyasətinin günahsız qurbanlarına çevrilmiş güneyli soydaşlarımızın başına gətirilənlər bu gün dünya mediasının gündəmindədir. Nələri eşidib, nələrin şahidinə çevrilmişik? Hüquq və azadlıqlarının müdafiəsinə, molla rejiminin amansızlıqlarına etiraz səslərini ucaldan yüzlərlə gəncin minlərin, milyonların gözü önündə edamı, güllləbaran edilməsi dünyanın sivil ölkələrinin gözü qarşısında baş verir. Anaların ahı, fəryadı göylərə bülənd olurkən, körpələrin naləsindən dağlar-daşlar dilə gəlirkən bəşər insanının vicdanı oyanmır ki, oyanmır.

1813-cü ildə çar Rusiyası və Qacarlar imperiyalarının bağladıqları "Gülüstan" müqaviləsi Azərbaycan türk xalqını ikiyə bölməklə bütün bu dəhşətli ayrılığın təməlini qoydu. Dünya yaranandan bəri məsum-məsum axıb gedən Araz nəhrinin qismətinə də "ayıran", "ikiyə bölən" çay kimi ifadələrlə tanınmaq yazıldı. Şairlərin şeirlərinə, yazıçılarımızın nəsr əsərlərinə hopdu bu Araz nisgili. Xalq şairi Söhrab Tahir bu milli ağrını belə poetikləşdirdi:

***Azad qardaşım var, onunla xoşam,***<br>
***Mən gərək sahili sahilə qoşam,***<br>
***Yarı bölünməkdən elə qorxmuşam,***<br>
***Çöpü də ikiyə bölmərəm daha.***

Bu bölünmələrin acısını illər uzunu yaşamış Xalq şairi Bəxtiyar Vahabzadə "Gülüstan" poemasında parçalanmış millətin ürək ağrılarını, qəlb göynərtilərini, etiraz nidalarını mükəmməl bir şəkildə qeyrət yaddaşımıza belə belə həkk etdi:

***Kağıza həvəslə o da qol atdı,***<br>
***Dodağı altından gülümsəyərək.***<br>
***Bir qələm əsrlik hicran yaratdı,***<br>
***Bir xalqı yarıya böldü qılınctək.***

***Öz sivri ucuyla bu lələk qələm***<br>
***Dəldi sinəsini Azərbaycanın.***<br>
***Başını qaldırdı, ancaq dəmbədəm***<br>
***Kəsdilər səsini Azərbaycanın.***

***O güldü kağıza qol çəkən zaman,***<br>
***Qıydı ürəklərin hicran səsinə.***<br>
***O güldü haqq üçün daim çarpışan***<br>
***Bir xalqın tarixi faciəsinə...***

Güneyimizdən qalxan Məhəmmədhüseyn Şəhriyarımızın səsi də bu taya beləcə çatdı:

***Heydər baba, göylər qara dumandı,***<br>
***Günlərimiz bir-birindən yamandı.***<br>
***Bir-birizdən ayrılmayın, amandı,***<br>
***Yaxşılığı əlimizdən aldılar,***<br>
***Yaxşı bizi yaman günə saldılar.***

***Bir uçaydım bu çırpınan yelinən,***<br>
***Qovuşaydım dağdan aşan selinən,***<br>
***Ağlaşaydım uzaq düşən elinən,***<br>
***Bir görəydim ayrılığı kim saldı,***<br>
***Ölkəmizdə kim qırıldı, kim qaldı.***

Ayrılıq, hicran, həsrət, iztirab, nisgil nidaları bütün soydaşlarımızın iç dünyasının tərcümanına çevrildi. "Ayrılıq, ayrılıq, aman ayrılıq, Hər bir dərddən olur yaman ayrılıq" nidaları ümumxalq kədərimizə çevrilərək, sinəsi bayatı boğçalı, şeir dilli otaylı-butaylı soydaşlarımızın döyünən ürəyində köz tutdu, şölələnən azadlıq çırağını gur yanan ocağa çevirdi. Xalq dilindən pərvazlanan bayatılara, ağılara döndü bu nidalar:

***Ağ dəvə düzdə qaldı,***<br>
***Yükü Təbrizdə qaldı...***

***"Təbrizim, Təbrizim,***<br>
***aman, Təbrizim,***<br>
***Yox olsun başından***<br>
***duman, Təbrizim!"***

– deyə qovrulan Süleyman Rüstəmin "dərdinə aşina" olan dilbir, dinbir, qanbir qardaşı Səhəndin yazdıqları millətin ruhunu oyatdı:

***Şairim, yubanma, yoldadır karvan,***<br>
***Qulaq as, dünyada gör bir nə səsdir.***<br>
***Bağrını sıxmasın atılan toplar,***<br>
***Qırılan zəncirdir, sınan qəfəsdir.***



Mərhum ədəbiyyatşünas-alimimiz, professor Yaşar Qarayevin Azərbaycan xalqının milli faciəsinin ifadəçisi kimi səsləndirdiyi aşağıdakı fikirlər bugünümüzün reallığını əks etdirmək baxımından olduqca dəyərlidir: "Otaylı-butaylı poeziyamız Pəhləvi rejiminin qorxulu yasağını pozan və sovet sərhəd rejiminin düyünlü və tikanlı məftillərini qırıb keçmək qüdrətinə malik olmuşdur".

Təbii ki, bir zamanlar "Güneyinə həsrət qalmış Quzeydi, Şəhidlərə məzar olmuş muzeydi – Dünyam mənim, dünyam mənim, iç dünyam!" yazaraq, milli ruhumuzun göynəyən yarasına su səpmək istədiyimiz zaman, yenidən Bəxtiyar Vahabzadə poeziyasının qan yaddaşımıza diqtə etdiyi mübarizlik ruhuna köklənirik:

***Ağalar bilmədi birdir bu torpaq,***<br>
***Təbriz də, Bakı da Azərbaycandır.***<br>
***Bir elin ruhunu, dilini ancaq***<br>
***Kağızlar üstündə bölmək asandır.***

Həqiqətən də, tarix dəfələrlə sübut etmiş və günü bu gün də sübut edir ki, qanbir-canbir qardaşları bir-birindən ayırmaq heç vaxt mümkün olmayıb və olmayacaq da! Bu gün azad düşüncəli, azad fikirli, mütərəqqi ideyalar, milli ideallar uğrunda gözlərini qırpmadan ölümə gedənləri edam kürsüsünə gətirənlər sabah özləri həmin edam kürsüsünə qalxmalı olacaqlar. Zalımların tarixin acı həqiqətləri ilə üz-üzə qalacaqları gün isə uzaqda deyil, çünki xalq bu gün bir ağızdan deyir:

***Necə ayırdınız dırnağı ətdən***<br>
***Ürəyi bədəndən, canı cəsəddən?***<br>
***Axı kim bu haqqı vermişdir sizə,***<br>
***Sizi kim çağırmış, Vətənimizə?***

Bir kərə yüksələn bayrağımız bir daha enmədiyi kimi, dırnağı ətdən, ürəyi bədəndən, canı cəsəddən də ayırmaq mümkün olmayacaqdır.

***Qiymət MƏHƏRRƏMLİ,***<br>
***AMEA Folklor İnstitutu Cənubi Azərbaycan folkloru şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***